# TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASININ (TÜRKPA)

# BAKI BƏYANNAMƏSİ

# TÜRKDİLLİ ÖLKƏLƏRİN PARLAMENT ASSAMBLEYASININ BAKI BƏYANNAMƏSİ

Azərbaycan Respublikası Milli Məclisinin, Qazaxıstan Respublikası Parlamenti Senatının, Qırğız Respublikası Joqorku Keneşinin, Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyətlərinin iştirakı ilə 2009-cu il sentyabrın 29-da Bakı şəhərində Türkdilli Ölkələrin Parlament Assambleyasının plenar iclası keçirilmişdir. Türkdilli Ölkələrin Parlament Assambleyası,

- Türkdilli Ölkələrin Parlament Assambleyasının yaradılması haqqında 2008-ci il noyabrın 21-də İstandul şəhərində imzalanmış Sazişin müasir dünyanın yeni çağırışları qarşısında xalqlarımızın qüvvələrini birləşdirmək yolunda atılan uğurlu tarixi addım olduğunu qeyd edərək,

- Türkdilli Ölkələrin Parlament Assambleyasının üzvü olan parlamentlərin öz ölkələrinin həyatında demokratik inkişafın vacib təzahürü kimi önəmli rol oynadığına əsaslanaraq, parlamentlərarası əməkdaşlığın yüksək səviyyəsini və tarix, dil və mədəniyyətin ümumiliyini vurğulayaraq,

- Türkdilli Ölkələrin Parlament Assambleyasının müstəqillik, suverenlik, ərazi bütövlüyü və dövlət sərhədlərinin pozulmazlığı, hüquq bərabərliyi, bir-birinin daxili işlərinə qarışmamaq prinsiplərinə hörmət bəslənilməsi, zor işlətməkdən və zor işlədiləcəyi ilə hədələməkdən, iqtisadi və hər hansı digər təzyiq metodlarından imtina əsasında dövlətlərin siyasi və iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsi, təbii ehtiyatlardan tam və səmərəli istifadə yolu ilə xalqların rifahının yüksəldilməsi, milli iqtisadiyyatların dinamik inkişaf etdirilməsi işinə dəyərli töhfələr verməsini arzulayaraq,

**bəyan edir:**

1. Türkdilli Ölkələrin Parlament Assambleyası çərçivəsində əməkdaşlıq dövlətlərimiz arasında siyasi, iqtisadi, mədəni və digər əlaqələri dərinləşdirməyin, xalqlarımızı bir-birinə daha da yaxınlaşdırmağın mühüm bir vasitəsidir.

2. Türkdilli Ölkələrin Parlament Assambleyasının fəaliyyəti tarix, dil və mədəniyyətin ümumiliyinin verdiyi imkanlardan dost və qardaş xalqlarımızın inkişafı naminə istifadə etmək niyyətinə əsaslanır.

3. Türkdilli Ölkələrin Parlament Assambleyası bizim ölkələr arasında qarşılıqlı surətdə faydalı və bərabər hüquqlu əməkdaşlığa yeni təkan verəcəkdir.

4. Türkdilli Ölkələrin Parlament Assambleyası parlamentlərarası əməkdaşlığın keyfiyyətcə yeni mərhələsi olan parlament diplomatiyası vasitələrinin köməyi ilə dövlətlər arasında siyasi dialoqun daha da inkişaf etdirilməsinə kömək göstərməyə çalışacaq, regional və qlobal təhlükəsizliyi qorumaq məqsədi ilə müxtəlif təşəbbüslərin irəli sürülməsi və həyata keçirilməsi üçün əlverişli siyasi meydan açacaqdır.